

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 239 (21.391)

5 dekabr 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## “Naxçıvanterminalkompleks” Birliyi istifadəyə verilmişdir





Dekabrın 4-də “Naxçıvanterminalkompleks” Birliyi üçün yeni inzibati bina və anbar kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov açılış mərasiminə gələn Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə raport vermişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri Asəf Məmmədov çıxış edərək demişdir ki, son illər muxtar respublikada gömrük infrastrukturu müasir tələblər səviyyəsində qurulmuşdur. Beynəlxalq standartlar və yerli şərait nəzərə alınmaqla Naxçıvan, Culfa, Şahtaxtı və Naxçıvan Beynəlxalq Hava Limanında gömrük idarələri üçün müasir komplekslər istifadəyə verilmişdir. Hazırda Sədərək sərhəd gömrük buraxılış məntəqəsində müasir tələblərə cavab verən kompleksin tikintisi davam etdirilir. Bu gün “Naxçıvanterminalkompleks” Birliyi üçün yeni kompleksin istifadəyə verilməsi də muxtar respublika gömrük sistemində müasir infrastrukturun qurulması sahəsində görülən işlərin davamıdır. Komitə sədri göstərilən diqqətə və yaradılan şəraitə görə muxtar respublika gömrükçüləri adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikanın xarici ticarət əlaqələrində mühüm rol oynayacaq “Naxçıvanterminalkompleks” Birliyi üçün müasir iş şəraitinin yaradıldığını bildirmiş, bu münasibətlə kollektivi təbrik edərək demişdir: “Naxçıvanterminalkompleks” Birliyi 1905-ci ildə – çar Rusiyası dövründə xarici ticarətin təşkili məqsədilə yaradılmış, Sovet hakimiyyəti qurulandan sonra isə Rusiya Xarici Ticarət İqtisadi Birliyinin yerli şöbəsi kimi fəaliyyət göstərmişdir. Təşkilat müstəqillik illərində də öz fəaliyyətini davam etdirmişdir. 2002-ci ildə isə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yeni əsasnaməsi təsdiq olunmuş və birlik komitənin strukturuna daxil edilmişdir.

Qeyd olunmuşdur ki, “Naxçıvanterminalkompleks” Birliyi Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında əhəmiyyətli sahələrdəndir. Çünki bu gün muxtar respublika ölkəmizin xarici ticarət əlaqələrinin təşkilində iştirak edir. Ona görə də bu sahədə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün tədbirlər görülmüş, kompleks üçün müasir iş şəraiti yaradılmışdır.

Ali Məclisin Sədri demişdir: Bu gün Azərbaycan müstəqil dövlətdir. Müstəqil dövlətdə hər bir qurum böyüklüyündən və kiçikliyindən asılı olmayaraq ölkənin inkişafına, möhkəmlənməsinə xidmət edir. Ölkəmizin xarici ticarət əlaqələrində iştirak edən “Naxçıvanterminalkompleks” Birliyi də belə qurumlardandır. Qurum tərəfindən mal və nəqliyyat vasitələrinin gömrük orqanlarına bəyan edilməsi üzrə broker xidməti, yüklü nəqliyyat vasitələrinin yoxlama tərəzilərində çəkilməsi, xarici dövlətlərə yüklərin göndərilməsi, gömrük və müvəqqəti saxlanc anbarlarının yaradılması, müsadirə olunmuş





malların gömrük hərracları vasitəsilə satılması və digər işlər həyata keçirilir.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikasının yerləşdiyi ərazi bu gün olduğu kimi, gələcəkdə də xarici ticarət əlaqələrinin təşkilində “Naxçıvanterminalkompleks” Birliyinin əhəmiyyətini artırır. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsi, Azərbaycanla qonşu ölkələr arasında dəmir yollarının birləşdirilməsi haqqında aparılan danışıqlar, eyni zamanda tarixi İpək Yolunun bərpa olunması onu deməyə əsas verir ki, gələcəkdə Naxçıvan tranzit yer kimi seqment rolunu öz üzərinə götürəcəkdir. Bu prosesə indidən hazırlaşmaq, müasir infrastruktur yaratmaq lazımdır. Son illər Culfa şəhərində müasir gömrük kompleksi tikilib istifadəyə verilmişdir. Hazırda Sədərəkdə yeni gömrük kompleksi tikilir. Bu gün Culfa şəhərində “Naxçıvanterminalkompleks” Birliyi üçün yeni kompleksin istifadəyə verilməsi isə gələcəkdə xarici ticarətdə Naxçıvanın seqment rolunu oynaması üçün geniş imkanlar yaradır. Ona görə də burada çalışan əməkdaşlar özlərini mütəxəssis kimi hazırlamalı, işləri dərindən öyrənməli, tikilənlər, qurulanlar qorunub saxlanılmalıdır.

Ali Məclisin Sədri bu vəzifələrin yerinə yetirilməsində kollektivə uğurlar arzulamış, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, inzibati bina və anbarlardan ibarət olan kompleks 1,4 hektar ərazini əhatə edir. 3 mərtəbədən ibarət olan inzibati binada rəsmiləşdirmə və iclas zalları, növbətçi hissə, server, vətəndaşların qəbulu və digər xidməti otaqlar, qazanxana və arxiv yerləşir. Binada elektron idarəetmə və kamera-nəzarət sistemləri quraşdırılmışdır. Növbətçi hissədəki biometrik qeydiyyat qurğusu vasitəsilə xidmətin təşkilinə, eləcə də əməkdaşların işə davamiyyətinə nəzarət olunacaqdır. Buradakı monitorlar isə anbarlar da daxil olmaqla kompleksin bütün ərazisini müşahidə etməyə imkan verir.

Rəsmiləşdirmə zalında beynəlxalq nümunəli əmtəə-nəqliyyat qaimələrinin doldurulması, gömrük brokeri və gömrük qanunvericiliyinə dair məlumatlandırma xidmətləri göstərilir. Malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Azərbaycan Respublikasının bütün gömrük orqanlarının qoşulduğu Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi vasitəsilə elektron formada həyata keçirilir. Zalda xidmətin operativ təşkili üçün elektron növbə sistemi yaradılmış, POS-terminal qoyulmuşdur. İkinci mərtəbədə birbaşa Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsindən idarə olunan elektron məlumat monitorları quraşdırılmış və dövri mətbuat guşəsi yaradılmışdır. Burada gündəlik məlumatlar və gömrük xidməti sahəsindəki yeniliklər öz əksini tapacaqdır.

Kompleksin ərazisində 1 açıq və 7 qapalı anbar, o cümlədən hər birinin tutumu 5 ton olan 2 soyuducu anbar vardır. “Naxçıvanterminalkompleks” Birliyi dəmir yolu ilə daşınacaq yüklərə gömrük nəzarətini həyata keçirmək imkanına da malikdir. Anbar kompleksinin hər iki tərəfindəki platformalar qatarla və avtomaşınla daşınan yüklərin yoxlanılması, yüklənib-boşaldılması üçün nəzərdə tutulmuşdur. Buradakı mövcud dəmiryol xətti yenidən qurulmuş, 60 tonluq tərəzi quraşdırılmışdır. Kompleksin ərazisində inşa olunmuş birmərtəbəli binada isə xidməti otaqlar və yeməkxana vardır.

Ali Məclisin Sədri “Naxçıvanterminalkompleks” Birliyinin muxtar respublikanın digər gömrük orqanları ilə əlaqəli işləməsi, əməkdaşların kurslara göndərilməsi barədə tapşırıqlar vermişdir.

Kompleksin ərazisində abadlıq işləri görülmüş, müasir işıqlandırma sistemi quraşdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Qətərin “Əl-Cəzirə” televiziyasında Naxçıvan Muxtar Respublikasına həsr olunmuş sənədli film yayımlanmışdır

Noyabrın 27-də Yaxın Şərqdə çoxsaylı tamaşaçı kütləsinə malik olan Qətərin “Əl-Cəzirə Sənədli Film” televiziya kanalında “Mərkəzi Asiya” çoxseriyalı sənədli filmin yayımına başlanılmışdır. Filmin ilk seriyası Naxçıvan Muxtar Respublikasına həsr olunmuşdur.

Ərəb dilində hazırlanmış filmdə tamaşaçılara Naxçıvanın qədim tarixi və zəngin mədəniyyəti barədə ətraflı məlumat verilmişdir. Gəmiqaya təsvirlərinə, muxtar respublika ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkarlanan zəngin maddi-mədəniyyət nümunələrinə və qədim yurd yerlərinə istinad edən müəllif Azərbaycanın bu diyarının bəşər sivilizasiyasının ilkin yaşayış məskənlərindən olduğunu tamaşaçıların diqqətinə çatdırmışdır. Filmdə tarixi gerçəkliklər öz dolğun əksini tapmış, Azərbaycanın əzəli torpağı olan Zəngəzurun Ermənistana verilməsi nəticəsində Naxçıvanın ölkənin əsas hissəsindən quru əlaqəsinin kəsildiyi vurğulanmışdır. Həmçinin burada tarixən formalaşmış zəngin memarlıq ənənələrindən də bəhs olunmuş, Naxçıvanın simvolu olan tarixi abidələr - Möminə xatın, Yusif Küseyiroğlu, Gülüstan türbələri, Naxçıvanqala, Əlincəqala, Xarabagilan, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi haqqında geniş məlumat verilmişdir. Naxçıvanın əyilməzlik simvolu olan Əlincəqalada qala müdafiəçilərinin Teymurləngin qoşununa qarşı apardığı qəhrəmanlıq mübarizəsindən söhbət açılmış, qalanın yaxınlığındakı Xanəgahda hürufilik fəlsəfəsinin banisi Fəzlullah Nəiminin məzarının yerləşdiyi bildirilmişdir.

Filmdə Naxçıvan xalçaçılıq məktəbinin qiymətli nümunələri və xalqımızın məişət tərzini özündə yaşadan bu qədim el sənətinin qorunub yaşadılması, eləcə də qədim musiqi alətləri barədə məlumat verilmişdir. Azərbaycanda, o cümlədən Orta Asiya ölkələrində ümumxalq bayramı kimi qeyd olunan Novruz bayramının Naxçıvanda da təntənəli şəkildə keçirildiyi diqqətə çatdırılmış, muxtar respublikada təşkil olunan Novruz şənliklərindən görüntülər təqdim olunmuşdur.

## Naxçıvanlı sahibkarlar Belarusda keçirilən biznes forumda iştirak ediblər

26-27 noyabr tarixlərində Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Belarusun paytaxtı Minsk şəhərində Belarus-Azərbaycan biznes forumu keçirilib.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə kənd təsərrüfatı, sənaye, informasiya və kommunikasiya texnologiyaları, tikinti, turizm, maliyyə və sair sahələrdə fəaliyyət göstərən iş adamları iştirak ediblər. Biznes forumda ölkəmizdə Azərbaycan və Belarus arasında əməkdaşlığın uğurla inkişaf etməsinin, ölkələrimiz arasında əlaqələrin qarşılıqlı dostluq və tərəfdaşlıq prinsipləri üzərində qurulmasının əhəmiyyəti diqqətə çatdırılıb. Tədbir çərçivəsində iş adamları arasında iqtisadi əlaqələrin və əməkdaşlıq perspektivlərinin müzakirə edildiyi ikitərəfli görüşlər keçirilib, ölkəmizin nümayəndə heyəti maşınqayırma, aqrar sektor, əczaçılıq müəssisələrinin və sənaye parkının fəaliyyəti ilə tanış olub.

Adıçəkilən tədbirdə Naxçıvan Muxtar Respublikasını “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqının direktoru, həmin şirkətin Bakı ofisinin nümayəndəsi və “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının direktoru təmsil edib.

Forum çərçivəsində keçirilmiş görüşlər zamanı “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqının nümayəndələri Belarus Respublikasında fəaliyyət göstərən “Belqos Pishe Prom”, “Grodno Pishe Prom”, “Vitebsky Likerovochniy Zavod” “BTK Construction”, “Belaruskiy Len” və “Belselkhozmash” şirkətlərinin nümayəndələri ilə, “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının direktoru müxtəlif şirkət rəsmiləri ilə əməkdaşlıq imkanlarına dair danışıqlar aparıblar.

## “Naxçıvan müstəqillik illərində: Hədəflər, inkişaf, nəticələr” mövzusunda keçirilən elmi konfrans başa çatmışdır

Xəbər verdiyimiz kimi, dekabrın 3-də AMEA Naxçıvan Bölməsində “Naxçıvan müstəqillik illərində: Hədəflər, inkişaf, nəticələr” mövzusunda elmi konfrans öz işinə başlamışdır. İkigünlük konfrans “İqtisadiyyat”, “Tarix”, “Mədəniyyət”, “Təbiət, təbiəti mühafizə və ekologiya” mövzularında keçirilən bölmə iclasları ilə öz işini davam etdirmişdir.

“İqtisadiyyat” bölməsində iqtisadiyyatın inkişafı, muxtar respublikanın enerji təhlükəsizliyi və onun sosial-iqtisadi inkişafa təsir imkanları, müasir mərhələdə aqrar sahədə həyata keçirilən tədbirlər, aparılan iqtisadi islahatlar, xarici iqtisadi əlaqələrin inkişafı və digər məsələlər barədə elmi məruzələr dinlənilmiş, müzakirələr aparılmışdır.

Elmi konfransın “Tarix” bölməsində müstəqillik illərində muxtar respublikamızda tarix elmi sahəsində qazanılan uğurlar, qarşıda duran vəzifələr, Naxçıvandakı arxeoloji tədqiqatlar, görkəmli şəxsiyyətlərin xatirələrinin əbədiləşdirilməsi, Azərbaycan-Türkiyə münasibətlərində Naxçıvanın yeri, tarixi abidələrin bərpası, mühafizəsi sahəsində həyata keçirilən tədbirlər və digər mövzular barədə elmi məruzələr dinlənilmişdir.

Müstəqillik dövründə Naxçıvan dialekt və şivələrinin öyrənilməsi məsələləri, muxtar respublikada yer adlarının tədqiqi, folklorun inkişafı, mədəniyyət siyasəti, milli-mənəvi dəyərlərin qorunması və bərpası “Mədəniyyət” bölməsinin əsas müzakirə olunan mövzuları sırasında idi.

“Təbiət, təbiəti mühafizə və ekologiya” bölməsində bu sahəyə göstərilən dövlət qayğısı, dərman bitkilərinin, o cümlədən torpaqların öyrənilməsi istiqamətində görülən işlər, aqrar sektordakı inkişaf meyilləri, aparılmış zooloji tədqiqatlar və digər məsələlərlə bağlı məruzələrdə konkret elmi faktlar ortaya qoyulmuş, mühüm elmi nəticələr əldə edilmişdir.

Bununla da, “Naxçıvan müstəqillik illərində: Hədəflər, inkişaf, nəticələr” mövzusunda elmi konfrans dekabrın 4-də öz işini başa çatdırmışdır.

**Xəbərlər şöbəsi**

Müasirləşən kəndlərimiz

## Kürçülü muxtar respublikamızın müasir yaşayış məntəqələrinin sırasına qoşulub

***Şərur rayonunun Kürçülü kəndində güclü təsərrüfatçılıq ənənələri formalaşdırılıb, hər il tonlarla kənd təsərrüfatı məhsulları istehsal edilib. Məhsuldar və bərəkətli torpaq sahələrindən səmərəli istifadə olunub. Sakinlər öz gün-güzəranlarını, əsasən, bu qiymətli sərvət hesabına qurublar. Əkinçilik, heyvandarlıq, bağçılıq onların ailə büdcəsinə gəlir gətirən məşğuliyyət sahələrinə çevrilib. Bu yaşayış məntəqəsindəki təşkilatlar da uzun illər boyu uyğunlaşdırılmış binalarda fəaliyyət göstərib. Son illər muxtar respublikada geniş vüsət alan tikinti-quruculuq tədbirləri Kürçülünü də müasir yaşayış məntəqəsinə çevirib.***

Cari ilin oktyabr ayının 6-da kənddə əsl bayram sevinci yaşanıb. Həmin gün Kürçülüdə istifadəyə verilən məktəb binası, kənd və xidmət mərkəzləri, kompleks quruculuq tədbirləri çərçivəsində 2 kilometr uzunluğunda avtomobil yoluna asfalt salınması, 2 min metr fiber-optik, 2200 metr elektrik, 1130 metr qaz xətlərinin çəkilməsi kənd adamlarının üzləşdikləri problemlərə son qoyub.

Bütün bunlar barədə kənd adamlarının fikirlərini öyrənmək məqsədilə, ilk olaraq, məktəb binasına üz tutduq. Kəndin ziyalı potensialının cəmləşdiyi 2 mərtəbəli bu təhsil ocağı 234 şagird yerlikdir. Təhsil ocağının yeni binasında 13 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter və müəllimlər otaqları, 4 elektron lövhəli sinif, kitabxana, bufet və idman zalı vardır. Müasir şərait pedaqoji kollektivə böyük sevinc bəxş etməklə yanaşı, müəllimlərin məsuliyyət hissini də artırıb.

“Gənclərin ölkəmizin gələcəyi üçün intellektual səviyyədə yetişmələri daha çox təhsildən asılıdır”, – deyən məktəbin direktoru Zülfiyyə Məmmədova Ali Məclis Sədrinin məktəbin açılış mərasimində müəllim və şagird kollektivləri qarşısında qoyduğu vəzifələri xatırlatdı: ***“Bu gün ölkəmizdə təhsil sahəsində həyata keçirilən tədbirlərin başlıca məqsədi ondan ibarətdir ki, gələcəyimizin quruculari olan gənclər təhsilli və vətənpərvər böyüdülsünlər. Kürçülü kənd tam orta məktəbi üçün müasir binanın tikilib istifadəyə verilməsi də bu məqsədə xidmət edir. Ona görə də müəllim və şagirdlər üzərlərinə düşən məsuliyyəti dərk etməlidirlər. Müəllimlər bilməlidirlər ki, onlar gələcəyin qurucularını hazırlayırlar. Şagirdlər isə bilməlidirlər ki, onlar gələcəyin quruculari kimi yetişməlidirlər... Şagirdlər müəllimə şəxsiyyət kimi, müəllimlər isə şagirdə gələcəyin qurucusu kimi baxmalıdır. Kürçülü kənd tam orta məktəbində bu proseslərin tənzimlənməsi üçün lazımi şərait yaradılmış, müasir tədris avadanlıqları kollektivin istifadəsinə verilmişdir. Müəllimlər bu avadanlıqlardan səmərəli istifadə etməli, tədrisin keyfiyyəti artırılmalı, şagirdlər keçirilən dərsləri qavrama yolu ilə mənimsəməlidirlər”.***

Bu vəzifələrin yerinə yetirilməsi üçün var gücləri ilə çalışacaqlarını bildirən Zülfiyyə Məmmədova dedi:



– Kürçülü kəndində bir gündə belə böyük həcmdə sosial obyektlərin istifadəyə verilməsi münasibətilə dərin minnətdarlığımızı bildirir, üzərimizə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəyimizə söz veririk. Məktəbdə yaradılan şərait çox yüksək səviyyədədir. Bu şəraitdən səmərəli istifadə etməklə gözəçarpan nailiyyətlərə imza atmaq heç də çətin deyil. Kollektivin də qarşısında məhz bu vəzifə durur: ölkəmiz üçün layiqli vətəndaşlar tərbiyə etmək. Elə vətəndaşlar ki, dövlətçiliyimizi, müstəqilliyimizi ən böyük, ən qiymətli sərvət sayaraq onların keşiyində durmağı bacarsınlar.

Müəllimlər bir məsələ barəsində də fikirlərini bizimlə bölüşərək bildirdilər ki, sağlam cəmiyyətin formalaşmasında məktəb nə qədər vacibdirsə, insan sağlamlığı da bir o qədər əhəmiyyətlidir. Bu baxımdan Kürçülüdə inşa edilmiş kənd mərkəzinin binasında feldşer-mama məntəqəsi üçün otaqlar ayrılmasını onlara göstərilən qayğı kimi qiymətləndirdilər.

“Son illər Naxçıvanda sayı artan səhiyyə obyektləri insanların sağlamlığına qayğının ifadəsi kimi diqqəti çəkir. Bu obyektlərdə müayinə və müalicə üçün hərtərəfli şərait yaradılır, həmin səhiyyə ocaqlarının maddi-texniki bazasının yaxşılaşdırılması diqqətdə saxlanılır”, – bu sözləri isə kənd sakini Rəşadə Seyidova deyir və əlavə edir:

– Səhiyyə ocağında çalışanlar yaradılan şəraitdən səmərəli istifadə etməyə səy göstərirlər. Əhali arasında maarifləndirici tədbirlərin aparılması diqqət mərkəzində saxlanılır. Səhiyyə işçiləri unutmurlar ki, onlara şərəfli bir vəzifə tapşırılıb. Və bu vəzifəni yerinə yetirmək üçün müasir iş şəraiti ilə təmin olunublar. Bu da məntəqədə çalışanların məsuliyyət hissini daha da artırıb.

Kənd ziyalısı Tariyel Mustafayev Kürçülüdə həyata keçirilən belə tədbirlərdən məmnunluğunu dilə gətirir, bunu kənd adamlarına göstərilən qayğı kimi dəyərləndirir. Təsərrüfatla sıx bağlı olan müsahibim vurğulayır ki, bu gün bir qarış torpağımız belə, əkilməmiş qalmır. Kənd təsərrüfatının inkişafına böyük diqqət yetirilir. Hər il muxtar respublikada genişmiqyaslı meliorasiya tədbirləri həyata keçirilir, regiona yeni kənd təsərrüfatı texnikaları gətirilir. Taxılçılığın, kartofçuluğun, heyvandarlığın və digər sahələrin inkişafı üçün yardımlar, kreditlər verilir. Digər tərəfdən yeni emal və istehsal sahələrinin fəaliyyəti genişləndirilir. Bu müəssisələrin məhsulları daxili bazarda yerli istehsalın çəkisini artırır. Bəzi məhsullarımız ixrac olunur. Rəqabətədavamlı məhsul istehsalı üçün layihələr həyata keçirilir. Sahibkarlığın inkişafı həm də minlərlə yeni iş yerinin açılmasına şərait yaradır. Bir iş yeri isə bir ailənin yaşayış səviyyəsinin yüksəlməsi deməkdir. Dövlətin dayağı onun insanlarıdır. İnsanların ehtiyacının ödənilməsi onların muxtar respublikada güclü iqtisadiyyata nail olunmasında fəallığını artırıb. Güclü iqtisadiyyatı olan diyarda inkişafı bütün sahələrdə görmək mümkündür. Həmsöhbətim deyir ki, insana diqqət və qayğı olan yerdə onun qurub-yaratmaq, yaşamaq əzmi də yüksəlir. Kürçülülər də zəhmətkeş insanlardır. Necə deyərlər, daşdan çörək çıxarmağı bacarırlar.

Tariyel Mustafayev bir qədər dayanır, üzünə təbəssüm qonur. Sözünə davam edir:

– Heç daşdan çörək çıxarmağa ehtiyac yoxdur. Kürçülünün məhsuldar torpaq sahələri var. Kənd adamları bunu bilir, gün-güzəranlarını yaxşılaşdırmaq üçün dövlətimizin yaratdığı şəraitdən səmərəli istifadə edirlər. Hər il müxtəlif sahələrin inkişafı üçün güzəştli kreditlər verilir, su ilə təminat yaxşılaşdırılır, yetişdirilən məhsulun satılmasındakı çətinliklər də aradan qaldırıldığından kənd adamları problemlərlə üzləşmirlər.

Yazımızın əvvəlində bildirdik ki, sovet dönəmində kənddəki qurumlar uyğunlaşdırılmış binalarda fəaliyyət göstəriblər. Artıq Kürçülüdə ikimərtəbəli kənd mərkəzi istifadəyə verilib. Burada rabitə evi, kitabxana, polis sahə və baytarlıq məntəqələri, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi fəaliyyət göstərir.

Kənd sakinlərinə sevinc bəxş edən yeni obyektlərdən biri də xidmət mərkəzidir. Xidmət mərkəzində bərbərxana, gözəllik salonu, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları mağazası fəaliyyət göstərir. Xidmət mərkəzinin istifadəyə verilməsi ilə sakinlərin lazımi ərzaq və sənaye mallarına olan tələbatları öz kəndlərində ödənilir.

Xidmət mərkəzində həmsöhbət olduğum kənd adamlarının sevinc hisslərini duymaq çətin deyildi. Onların hamısı kənddə aparılan kompleks quruculuq işlərinə görə minnətdarlıqlarını bildirdilər.

*Beləcə, muxtar respublikamızda yenilələn yaşayış məntəqələri sırasında Kürçülü kəndi də öz yerini tutub. 2015-ci ilin başa çatmasına az vaxt qalıb. Yəqin ki, bu müddətdə belə yaşayış məntəqələrinin sırasına daha bir neçəsi də əlavə olunacaq. O kəndlərdə də bayram sevinci yaşanacaq. Diyarımız 2016-cı ilə daha çox müasir yaşayış məntəqələri ilə qədəm qoyacaq.*

**Muxtar MƏMMƏDOV**

## Sağlam ailə sağlam cəmiyyətin əsasıdır

***Sağlam ailələrin qurulması və özündə xalqımızın ailə dəyərlərini daşıması vacib şərtlərdən biri hesab olunur. Muxtar respublikanın rayon və kəndlərində keçirilən maarifləndirici tədbirlərdə bu amilə xüsusi diqqət yetirilir. Növbəti belə tədbir Şahbuz rayonunun Kükü kəndində keçirilmişdir.***

"Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları" mövzusunda keçirilən tədbiri rayon İcra Hakimiyyəti başçısının müavini Mətanət Məmmədova açmışdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova "Ailədə qadının sağlam həyat tərzini aşılamasında əsas rolları" mövzusunda çıxış etmişdir. Bildirilmişdir ki, son illər ölkəmizdə sağlam ailənin qurulması sahəsində bir çox yeniliklər həyata keçirilmişdir. Bu tədbirlərdən biri də nikahdan öncə məcburi tibbi müayinədən keçmə tələbinin ailə qanunvericiliyinə daxil edilməsidir. "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli Qanununa əsasən, nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi cari ilin 1 iyun tarixindən etibarən həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli Sərəncamı ilə "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi dövlətin bu sahəyə dəstəyinin göstəricisi olmaqla bəzi amillərin qadınların reproduktiv sağlamlığına mənfi təsiri ilə bağlı maarifləndirmə işinin aparılmasını sürətləndirmişdir.

Komitə sədri vurğulamışdır ki, ailə mühiti yeni nəsil üçün birinci məktəbdir. Uşaq xalqımızın ailə dəyərlərini, sağlam həyat tərzini, ilk olaraq, valideynlərindən öyrənir. Bu səbəbdən həm ailədə, həm də cəmiyyətdə qadının üzərinə daha çox məsuliyyət düşür. Ailə dəyərlərini qoruyub saxlayan, nəsildən-nəslə ötürən qadındır. Övladı ata-ana birgə tərbiyə etsə də, əsas təsir anadan gəlir. Ana övladına daha yaxın olur, onu daha yaxşı tanıyır. Ailə münasibətlərinin düzgün qurulması, ailə funksiyasının müəyyənləşdirilməsi, eləcə də uşaqların təlim-tərbiyəsi, onlara sağlam həyat tərzinin, qohum və erkən nikahların doğurduğu mənfi nəticələrin aşılanması, ailə qurarkən ailənin mahiyyətini anlaması və buna hazır olması ilə əlaqədar nə dərəcədə doğru istiqamətin verilməsi evin qadınından asılıdır.

Ramilə Seyidova tədbir iştirakçılarının diqqətinə çatdırmışdır ki, ailə dəyərlərimizi xarakterizə edərkən burada övlad sevgisinin xüsusi önəm daşıdığını görürük. Bizim ailələrdə övlada olan sevgi, bəlkə də, dünyanın heç bir xalqı ilə müqayisə olunmayacaq qədər güclüdür. Lakin bu, ərköyün, zəhmətə qatlaşmayan uşaqların böyüməsinə şərait yaratmamalıdır. Çünki bu gün ailələrdə tərbiyə olunan uşaqlar gələcəyin ailə quran tərəfləri olacaqlar.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva keser əməliyyatının ana və uşağa mənfi təsiri barədə çıxış edərək tədbir iştirakçılarına mövzu ilə bağlı slayd vasitəsi ilə ətraflı məlumat vermişdir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılmış, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Dövlət Miqrasiya Xidməti Şərur rayonunda maarifləndirici tədbir keçirib



***Dekabrın 4-də Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən Şərur rayonunda tədbir keçirilib.***

Şərur Rayon Polis Şöbəsinin sahə inspektorlarının və inzibati ərazi dairəsi üzrə nümayəndələrin iştirak etdiyi tədbirin keçirilməsində məqsəd miqrasiya sahəsində iştirakçıların maarifləndirilməsi olub.

Tədbiri giriş sözü ilə Şərur Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlham Bədəlov açaraq deyib ki, muxtar respublikanın sosial-iqtisadi inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən islahatlar nəticəsində ciddi iqtisadi uğurlara nail olunub. Naxçıvanda həyata keçirilən tarazlaşdırılmış iqtisadi siyasət öz bəhrəsini verib, əldə edilən makroiqtisadi sabitlik innovasiyalı iqtisadiyyata keçidin təmin olunması üçün böyük imkanlar yaradıb. Yeni müəssisələrin və iş yerlərinin yaradılması, tikinti sektorunun intensiv inkişafı, kommunal xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəldilməsi, sahibkarlıq mühitinin yaxşılaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması, insanların maddi rifah halının yüksəlməsində əhəmiyyətli nailiyyətlərin əldə olunması əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin muxtar respublikaya olan marağını artırıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəis müavini Elnur Məmmədov əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin əmək fəaliyyətinə dair məhdudiyyətlər, onların ölkəmizdə işə cəlb olunması və respublikamızda əmək miqrasiyasının hüquqi tənzimlənməsi barədə məlumat verib. Bildirilib ki, 18 yaşına çatan əmək qabiliyyətli hər bir əcnəbi və ya vətəndaşlığı olmayan şəxs onu işə cəlb edən hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri vasitəsilə iş icazəsi aldıqdan sonra Azərbaycan Respublikasında işləyə bilər. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün əsas şərtlər iş yerinin tələblərinə cavab verən, peşə hazırlığına və ya ixtisasa malik Azərbaycan Respublikası vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğu, məşğulluq xidməti orqanları tərəfindən işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyaclarını yerli əmək ehtiyatları hesabına təmin etmək imkanının olmamasıdır.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarından Əfqan Əliyevin, Rahib Kərimovun, Şahin Nəbiyevin çıxışları olub.

## Naxçıvan şəhərində keçirilən əmək yarmarkasına 466 boş iş yeri çıxarılmışdı

*Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində keçirilən əmək yarmarkasında şəhər Məşğulluq Mərkəzinin direktoru Əli Məmmədov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov tədbirin əhəmiyyəti barədə danışdılar.*

Bildirildi ki, şəhərdə fəaliyyət göstərən dövlət təşkilatları və özəl müəssisələrdəki vakant iş yerlərinin qeydiyyatı aparılıb, yarmarkaya 47 təşkilatdan 466 boş iş yeri çıxarılıb. Çıxış edənlər muxtar respublikamızda, eləcə də Naxçıvan şəhərində əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən işlərdən də söz açaraq bu işlərin əhalinin rifahının yaxşılaşmasında mühüm rol oynadığını qeyd etdilər, işaxtaran vətəndaşların işlə təmin edilməsində əmək yarmarkalarının əhəmiyyətindən danışdılar. Qeyd olundu ki, ötən il ərzində Naxçıvan şəhərində keçirilən əmək yarmarkalarında 205 nəfər sakin müxtəlif xarakterli işlərə göndəriş alıb.



Sonra işaxtaran vətəndaşlar yarmarkada onlara təqdim olunan iş yerləri ilə tanış oldular. İşaxtaran vətəndaş Ziyad Hacıyev bizimlə söhbət zamanı qeyd etdi ki, yeni iş yerlərinin yaradılması və əmək yarmarkaları vasitəsilə işaxtaranlara təqdim olunması əhali tərəfindən rəğbətlə qarşılanır. Yarmarkaların təşkilində əməyi olanlara minnətdarlığını bildirən Ziyad Hacıyev dedi ki, hər kəs burada öz ixtisasına və bacarığına uyğun iş yeri axtara və göndəriş ala bilər.

Naxçıvan Şəhər Məşğulluq Mərkəzinin direktoru Əli Məmmədovla da yarmarkanın gedişində həmsöhbət olduq. Müsahibimiz bildirdi ki, yarmarkaya müraciət edənlərdə aktivlik yüksək səviyyədədir, vətəndaşlar gəlib boş iş yerləri, həmin müəssisədə iş şəraiti, əməkhaqqı ilə maraqlanır, uyğun bir iş tapdıqda isə qeydiyyatdan keçib göndəriş alırlar.

Öz ixtisasına uyğun işə göndəriş alan Rüstəm Həsənovdan təəssüratlarını soruşduq. Bildirdi ki, hələlik, bu iş onu qane edir. "İşin pisi, yaxşısı yoxdur, əsas odur ki, o işi ürəklə görəsən", – deyən müsahibim yeni iş yerinə göndəriş almasının onu çox sevindirdiyini qeyd etdi. Dedi ki, o, kollektivdə işləyəcək, iş təcrübəsi əldə edəcək.

Tədbirdə, ümumilikdə, 20 nəfərə işə göndəriş verildi.

**Səbuhi HÜSEYNOV**

***İnsan həyatının rahat və təhlükəsiz keçməsi üçün zəruri olan bir sıra məsələlərin tam və vaxtında həll olunması müasir inkişafın mühüm tələblərindən biridir. Bu cəhətdən sığorta fəaliyyətinin cəmiyyət həyatındakı sosial müdafiə rolu çox əhəmiyyətlidir. Muxtar respublikamızda sığorta xidmətinin genişləndirilməsi istiqamətində görülən bütün məqsədyönlü tədbirlərin əsas mahiyyəti də bundadır.***

## Sığorta fəaliyyəti uğurla davam etdirilir

Sığorta təkcə bir iqtisadi fəaliyyət növü olmayıb həm də mühüm bir tənzimləyici vasitədir. Müasir dünyada sığorta münasibətləri insan həyatının və fəaliyyətinin bütün sahələrində özünü göstərir. Təkcə işgüzar fəaliyyətdə deyil, hər yerdə rast gəlinə bilən arzuedilməz hadisələrdən insanlar sığortalanmaq istəyirlər. Belə ki, heç gözlənilmədən evdə, işdə, istehsalatda, səyahətdə rast gəlinən bədbəxt hadisələr nəticəsində insanlara maddi zərərlər dəyə bilər. Buna görə də sığorta fəaliyyətinin günün tələbləri səviyyəsində təşkil olunması, sığortanın dünyanın bir çox yerlərində tətbiq olunan forma və növlərinin muxtar respublikamızda da genişləndirilməsi, gözlənilməz hadisələr zamanı dəyən zərərin qısa müddətdə aradan qaldırılması bugünkü real həyatın tələblərindəndir. Məhz buna görə də dörd il bundan əvvəl – 2011-ci ilin noyabr ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirədə sığortanın inkişafının mövcud vəziyyəti ətraflı müzakirə olunmuş, sığortanın bütün növlərinin inkişafının təmin edilməsi, hüquqi və fiziki şəxslərin xidmətin bu növündən faydalanması üçün geniş izahat-təbliğat işinin aparılması, aidiyyəti orqanlar tərəfindən qanuna müvafiq tədbirlər görülməsi barədə mühüm və zəruri tapşırıqlar verilmişdir. Həmin müşavirədən sonra muxtar respublikada sığortanın bütün növlərinin inkişaf etdirilməsi üçün yeni mərhələ başlanmışdır.

Keçən bu müddət ərzində Naxçıvan Muxtar Respublikasında sığorta fəaliyyətinin təşkil olunması istiqamətində xeyli işlər görülmüşdür. Əhalinin və sahibkarların maraqlarına xidmət edən, onların sosial müdafiəsinin təşkili istiqamətindəki bu işlər muxtar respublikada daşınmaz əmlakın, avtomobil nəqliyyatı sahiblərinin mülki məsuliyyətinin, habelə istehsalatda bədbəxt hadisələrdən və peşə xəstəliklərindən icbari sığorta tədbirləri üzrə aparılmışdır. Bunlardan başqa, muxtar respublikamızda fərdi qəza, əmlakın yanğın və digər risklərdən sığortalanması, avtonəqliyyat vasitələrinin tam sığortası və digər könüllü sığorta növləri əhali arasında geniş təbliğ olunmuş, tədbirlər hazırlanıb həyata keçirilmişdir. Əldə olunan nəticələrin müqayisəli təhlili nəticəsində muxtar respublikada sığorta fəaliyyəti üzrə xeyli artım olduğu görünməkdədir. Bu sahəyə göstərilən dövlət qayğısının nəticəsində bu dövrdən başlayaraq hər il bağlanılan sığorta müqavilələrinin sayında dinamik artım müşahidə olunmaqdadır. Belə ki, 2011-ci illə müqayisədə cari ildə muxtar respublikada daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası və istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticələrində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalar üzrə sığorta haqlarının toplanması 2,6 dəfə artmışdır. Qeyd olunan dövrdə şəxsi sığortada 2,3 dəfə, məsuliyyət sığortasında 9,3 dəfə artım əldə olunmuşdur. Əhalinin bu sahədə maariflənməsi və aparılan işlər nəticəsində sığorta müqavilələrinin bağlanılmasına maraq xeyli artmışdır. Belə ki, qeyd olunan dövrlə müqayisədə cari ildə mülki məsuliyyət sığortası üzrə 1,5 dəfə, əmlak sığortası üzrə 1,4 dəfə olmaqla, ümumilikdə, sığorta müqavilələrinin sayında 1,3 dəfə artım olmuşdur.

Sığorta geniş əhatəli və əhalinin müxtəlif təbəqələrinin maraqlarını ödəyən bir xidmət növüdür. Odur ki, onun təkmilləşdirilməsi üçün maarifləndirmə tədbirləri ilə yanaşı, aidiyyəti qurumlarla da aparılan işlərin mühüm əhəmiyyəti vardır. Bu baxımdan bəhs olunan müddət ərzində avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortalanması məqsədilə dövlət yol polisi ilə keçirilmiş birgə tədbirlərin və aparılmış müntəzəm reydlərin əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Eləcə də daşınmaz əmlakın icbari sığortasının aparılması üçün yerli icra hakimiyyəti orqanları və Fövqəladə Hallar Nazirliyi ilə birlikdə aparılan ardıcıl tədbirlər də öz səmərəsini verməyə başlamışdır. Görülmüş bütün bu işlərin nəticəsi olaraq muxtar respublikamızda daşınmaz əmlakın (yaşayış evi və mənzillərin) icbari sığortaya cəlb edilməsi xeyli artmış, hərəkətdə olan əksər nəqliyyat vasitələrinin sahibləri avtonəqliyyat vasitəsinin sahibi kimi mülki məsuliyyətini icbari sığorta etdirməklə öz risklərini zəmanət altına almışlar. Həmçinin muxtar respublika ərazisində sənayedə, nəqliyyatda, kənd təsərrüfatında, dövlət, qeyri-dövlət müəssisələrində, sahibkarlıq obyektlərində çalışan işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəliklərindən peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari qaydada sığortası təmin edilmişdir.

Bütün bunlar isə, şübhəsiz, muxtar respublikada sığorta fəaliyyətinin genişləndirilməsinə göstərilən dövlət qayğısı nəticəsində mümkün olmuşdur. Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi üçün yeni bina tikilmiş, Dövlət Baş Sığorta Agentliyinə və rayon, şəhər dövlət sığorta agentliklərinə xidməti avtomobillər verilmiş, işçilər zəruri avadanlıqlarla təmin olunmuşlar. Əhali ilə aparılan işin səmərəsini artırmaq, sığorta müqavilələri bağlamaq üçün müraciət edən vətəndaşlara operativ xidmətlər göstərilməsi üçün müasir iş şəraiti yaradılmışdır. Bütün bunlar muxtar respublikamızda sığorta fəaliyyətinin bundan sonra daha da genişləndirilməsi və əhaliyə göstərilən sığorta xidmətlərinin növünün və keyfiyyətinin artırılmasına öz müsbət təsirini göstərəcəkdir.

**Əli CABBAROV**

Yeni nəşrlər

# "Kənd təsərrüfatı ili"nə layiqli töhfə

***Məlum olduğu kimi, kənd təsərrüfatının inkişafına yeni təkan vermək, aqrar sektordakı cari məsələlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək məqsədilə 2015-ci il ölkəmizdə və Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili" elan edilmişdir.***



Muxtar respublikada etibarlı ərzaq təminatı sisteminin qurulması üçün mühüm işlər görülmüş, bu istiqamətdə ardıcıl və kompleks tədbirlər həyata keçirilməkdədir. İqtisadiyyatın mühüm tərkib hissələrindən biri olan kənd təsərrüfatı sahəsində həyata keçirilən islahatların növbəti mərhələlərinin sürətləndirilməsi üçün bu tədbirlərin davam etdirilməsi zərurəti yaranır.

Bu baxımdan Elnur Bağırovun muxtar respublikada əkinəyararlı torpaqların xüsusiyyətləri, burada becərilən yüksək məhsuldar kənd təsərrüfatı bitkilərinin qorunub saxlanılması, əhalinin təhlükəsiz və keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi və idxaldan asılılığın aradan qaldırılması məsələlərindən bəhs edən "Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı" adlı kitabı muxtar respublikada aqrar sahənin inkişafına layiqli töhfədir. Kitabın elmi redaktoru iqtisad üzrə fəlsəfə doktoru, dosent Müslüm Cabbarzadədir.

2015-ci ilin "Kənd təsərrüfatı ili" elan edilməsinə həsr edilən və geniş oxucu kütləsinə təqdim olunan bu kitabda Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı ardıcıl və mərhələli şəkildə tədqiq edilmişdir. Kitabda Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın mühüm sahəsi olan kənd təsərrüfatının indiyədək keçdiyi tarixi yol, müasir vəziyyəti, inkişaf perspektivləri araşdırılmış, aqrar sahənin müxtəlif bölmələri həm kompleks şəkildə, həm də ayrı-ayrılıqda təhlil edilmişdir.

Kitabda, ilk olaraq, Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi, relyefi, geoloji quruluşu, faydalı qazıntıları, iqlimi və daxili suları, həmçinin torpaq quruluşu və torpaq bölgüsü məsələləri araşdırılmışdır. Naxçıvanın kənd təsərrüfatı haqqında tarixi mənbələrdəki məlumatlar, muxtariyyət dövrünün birinci yarısında burada kənd təsərrüfatının ümumi inkişaf meyilləri, 1969-cu ildən sonra aqrar sahənin inkişafında ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə görülmüş işlər, həmçinin ölkəmizin müstəqillik dövründə kənd təsərrüfatının ümumi vəziyyəti tədqiq olunmuşdur.

Bununla yanaşı olaraq, kitabda Naxçıvan Muxtar Respublikasının aqrar sektorunda yeni mülkiyyət münasibətlərinin yaradılması və torpaqların özəlləşdirilməsi, həyata keçirilən torpaq islahatları və onların nəticələri, həmçinin kənd təsərrüfatının mövcud sahə strukturunun formalaşması məsələləri şərh olunmuş, muxtar respublika iqtisadiyyatının dinamik inkişafı fonunda aqrar sahənin yeri, müasir mərhələdə muxtar respublikada kənd təsərrüfatının təhlili və həmçinin aqrar sahədə sürətli artımın başlıca amili hesab edilən dövlət dəstəyinin əsas meyillərinə xüsusi diqqət yetirilmişdir. Nəfis tərtibatla çap edilmiş kitabda muxtar respublikada aqrar sahənin inkişafını əks etdirən müxtəlif fotoşəkillər oxuculara təqdim olunur.

Kitab muxtar respublikada kənd təsərrüfatının dünəni, bu günü və inkişaf istiqamətləri ilə maraqlananlar üçün dəyərli mənbədir.

**Mehdi BAĞIROV**
*iqtisad üzrə fəlsəfə doktoru*

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2015-ci ilin noyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1310 | 78,6 | 79,0 | 100,5 |
| 2. | Şahbuz rayonu | 433 | 26,0 | 26,1 | 100,4 |
| 3. | Kəngərli rayonu | 647 | 38,8 | 38,9 | 100,3 |
| 4. | Culfa rayonu | 1199 | 71,9 | 72,0 | 100,1 |
| 5. | Naxçıvan şəhəri | 3670 | 220,2 | 220,2 | 100,0 |
| 6. | Şərur rayonu | 1620 | 97,2 | 97,2 | 100,0 |
| 7. | Babək rayonu | 1760 | 105,6 | 105,6 | 100,0 |
| 8. | Sədərək rayonu | 345 | 20,7 | 20,7 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 23985 | 1439,1 | 1257,4 | 87,4 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **34969** | **2098,1** | **1917,1** | **91,4** |

**Qeyd:** Noyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 34 milyon 969 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 98 min 100 manat olmuş, cəmi 1 milyon 917 min 100 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 91,4 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2015-ci ilin noyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 560625 | 56063 | 56234 | 100,3 |
| 2. | Naxçıvan şəhəri | 2998556 | 299856 | 300762 | 100,3 |
| 3. | Ordubad rayonu | 1053764 | 105376 | 105677 | 100,3 |
| 4. | Kəngərli rayonu | 605297 | 60530 | 60690 | 100,3 |
| 5. | Culfa rayonu | 983852 | 98385 | 98605 | 100,2 |
| 6. | Sədərək rayonu | 233101 | 23310 | 23356 | 100,2 |
| 7. | Şərur rayonu | 1647822 | 164782 | 165082 | 100,2 |
| 8. | Babək rayonu | 1584018 | 158402 | 158481 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 6373513 | 636958 | 571329 | 89,7 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **16040548** | **1603662** | **1540216** | **96,0** |

## Qış mövsümündə əhalinin yerli tərəvəz məhsulları ilə təminatına əlverişli şərait yaradılıb

Özəl sektorun inkişafı daxili bazarın qorunmasında, idxaldan asılılığın aradan qaldırılmasında, əhalinin tələbatının yerli istehsal hesabına ödənilməsində əhəmiyyətli rola malikdir. "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda da özəl sektorun inkişafı əsas yer tutur. Bu məqsədlə davamlı tədbirlər həyata keçirilir, sahibkarlara dövlət maliyyə dəstəyi göstərilir, yeni istixana komplekslərı yaradılır.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyindən qəzetimizə verilən məlumata görə, hazırda Naxçıvan şəhəri, Şərur, Babək, Culfa, Kəngərli, Ordubad rayonlarında olmaqla, ümumilikdə, 113 min 892 kvadratmetr sahədə 22 istixana təsərrüfatı fəaliyyət göstərir.

Bu təsərrüfatlarda cari ilin ötən dövrü ərzində pomidor, xiyar, badımcan, bibər, limon, çiyələk, göbələk, göyərti, gülkələm, kahı, brokoli əkini həyata keçirilib. Təkcə 2015-ci ilin ötən dövrü ərzində sahəsi 8 min 906 kvadratmetr olan 7 istixananın qurulması başa çatdırılıb. Ümumilikdə isə 2000-2015-ci illərin ötən dövrü ərzində sahəsi 101 min 476 kvadratmetr olan istixanaların qurulmasına 4 milyon 540 min 500 manat güzəştli kredit verilib.

Nazirlikdən onu da bildirdilər ki, istixanalarda müasir kənd təsərrüfatı texnikalarından istifadə, yeni texnologiyaların tətbiqi yüksək məhsuldarlığa nail olunmasında və əhalinin keyfiyyətli məhsullarla təminatında əhəmiyyətli rol oynayır. İstixanalarda becərmə tədbirlərində üzvi gübrələrdən istifadə edilir, müxtəlif bitkilərin tozlanması xüsusi arı ailələri vasitəsilə aparılır. Bu da məhsuldarlığın təbii yolla artırılmasına, mövsümi ekoloji təmiz məhsul istehsalına imkan verir. Ekotester vasitəsilə məhsulun tərkibində olan radiasiya və nitratın (azot) müəyyən olunmuş normaya uyğunluğu mütəmadi olaraq nəzarətdə saxlanılır. Bu istixana kompleksləri növbəti qış mövsümündə də daxili bazarın tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə imkan verəcək.

**Kərəm HƏSƏNOV**

*Şərq ölkələrinin qiymətli bitkisi sayılan püstə əsrlər boyu Naxçıvanda becərilməmişdir. Bu payızda qonşu ölkələrdən püstə tinglərinin alınıb gətirilməsi, əkinə başlanması muxtar respublikanın bitki örtüyünün zənginləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamıdır.*

## Naxçıvanda daha bir qiymətli bitkinin əkininə başlanılıb

Püstə qiymətli çərəz, qatranlı aşı maddələri ilə zəngin olan gövdə və yarpaqları lak-boyaq sənayesinin xammalı hesab olunur. Bir neçə il bundan əvvəl bu bitkinin becərilmə qaydalarını öyrənmək məqsədilə Elmi-Tədqiqat Bağçılıq və Subtropik Bitkilər İnstitutunun Abşerondakı dayaq məntəqəsinə getdim. Bu məntəqədə püstənin morfoloji və aqrobioloji xüsusiyyətlərini, barasalma yollarını öyrəndim.

Püstənin becərilmə xüsusiyyətləri ilə bağlı oxucuları, həvəskar bağbanları məlumatlandırmağı özümə borc bildim.

Püstə sumaqkimilər fəsiləsindən olan, mil kökləri torpağın 6-7 metr dərinliyinədək işlədiyindən daşlı, gilli, hətta şoranlığa meyilli torpaqlarda belə, bol məhsul verən, quraqlığa dözümlü, uzunömürlülükdə çinarı da üstələyən, 700 ildən 1500 ilədək yaşayan nadir bitkilərdəndir. Yaşlı ağaclar 70-80 kiloqram məhsul verir. Abşeronda Buzovna, Bülbülə sortları 150 kiloqramadək bar verə bilir. Maraqlıdır ki, püstənin güclü kök sistemi inkişaf etdikcə gövdəsindən 50 metrədək uzaqlaşıb özünə qida və rütubət axtarır. Yaxşı qulluq edildikdə ting əkinindən 3-4 il sonra bara düşür, ağacın hündürlüyü 3-4 metrdən 8 metrədək çata bilir. Yarpaqları qalın dərili, seyrək çətirlidir. Xəstəlik və ziyanvericilərə qarşı dözümlüdür. Meyvəsi qərzəklidir, yəni cəviz, fındıq, badam, şabalıd kimi bərk qutucuq içərisindədir. Aprelin axırında çiçəkləyir. Meyvəsinin tərkibində mədə-bağırsaq, qaraciyər xəstəliklərinin faydalı məlhəmi olan 60 faizədək yağ, 25 faizədək zülal vardır. Qənnadı sənayesində cəviz, badam, fındıq kimi qiymətli rol oynayır. Yarpaqları lak-boyaq sənayesinin ən qiymətli xammalıdır. Püstə ağacının oduncağı xarratlıqda əvəzsiz taxtadır.

Əkin sxeminə gəldikdə, 7x7 metr məsafədə yuvalar açılır. Dibçəklərdəki hazır tinglər basdırılarkən çalaya üzvi gübrə, az miqdarda azot, fosfor gübrələri əlavə edilir. Torpaq nə qədər nəm olsa da, ting əkilən kimi dərhal suvarılmalıdır ki, çürümə yarada biləcək hava çıxarılsın, kök sisteminin torpaqla sıx təması təmin olunsun. Püstə bağı ting və toxumla da salına bilər. Calaqaltı üçün meşələrdə bitən saqqızağacının toxumları cücərdilir. Toxumla salındıqda toxumun cücərməsi üçün əvvəlcədən hazırlıq işləri görülür. Belə ki, ağzıaçıq toxumlar 0,1 faizli kalium-permanqanat məhlulunda 5 dəqiqəyədək, ağzıqapalı toxumlar isə 25 dəqiqəyədək saxlanılır, birincilər 2-3 gün, ikincilər 4-5 gün suda isladılır. Yuyulmuş təmiz qum rəflərində istixana şəraitində (22-25 dərəcə) səpilən toxumlar 5-7 gündən sonra cücərir, 15 gündən sonra kütləvi cücərtilərin üstündən örtük götürülür, kök pöhrələri təmizlənib qida qarışığı olan cərgələrdə 10x30 santimetr sxem ilə əkilir.

Naxçıvan-Sədərək avtomobil yolunun kənarında püstə bağının salınmasına başlanılmışdır. Heç şübhəsiz ki, əkilən tinglər, çəkilən zəhmət, sənaye üsulu ilə salınan püstə bağları öz bəhrəsini verəcəkdir. Yurd sevgisi həm də əməli işdə özünü göstərir. Vətən seviləndə, əzizlənəndə Vətən olur. Yoxsa, onun qürbətlə nə fərqi olardı? Fikrimizi dahi Azərbaycan şairi Nizami Gəncəvinin kəlamı ilə bitirib bağbanlara bu nəcib işdə uğurlar arzulayırıq:

*Ağac əkən zaman elə yerdə ək*
*Ki, yəqin biləsən o, bar verəcək.*

**Qaşdar ƏLİYEV**

***İtmişdir***

Naxçıvan şəhər sakini Allahverdiyeva Lalə Zahir qızının adına olan evin MH-0016464 seriya nömrəli çıxarışı və AA-001009 nömrəli plan ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 917